**Rəşid Vəkil oğlu CABBAROV**
Odlar Yurdu Universiteti, Psixologiya, pedaqogika və sosial fənnlər kafedrası,
p.e.d., professor
E-mail: rashid.jabbar.v@gmail.com
ORCID ID: 0000-0002-0623-27721

**Nilufər Rauf qızı MƏMMƏDOVA**
Qərbi Kaspi Universiteti, Psixologiya və Sosial iş kafedrasının magistrantı
E-mail: nilufarmammadova0703@mail.ru

# YENİYETMƏLİK YAŞ DÖVRÜNÜN SOSİAL-PSİXOLOJİ SƏCİYYƏLƏNDİRİLMƏSİ

**Xülasə**

Müəyyən yaş aralığını əhatə edən yeniyetməlik dövrü uşaqlıqdan yetkinliyə keçid mərhələsi kimi səciyyələndirilir və bu dövrün əsas fiziki, psixoloji və sosial xüsusiyyətləri təhlil olunur. Göstərilir ki, yeniyetməlik dövründə fiziki inkişaf intensiv xarakter daşıyır: boy və çəki artımı, əzələ və sümük sisteminin qeyri-bərabər inkişafı, ikinci cinsi əlamətlərin formalaşması müşahidə edilir. Ürək-damar və daxili sekresiya sistemlərindəki uyğunsuz inkişaf isə müvəqqəti funksional pozuntulara səbəb ola bilər.Psixoloji baxımdan bu dövr idrak fəaliyyətinin mürəkkəbləşməsi ilə xarakterizə olunur; yeniyetmələr artıq sistemli bilikləri mənimsəyir, ümumiləşdirmə və abstrakt təfəkkür bacarıqları inkişaf edir. Bununla yanaşı, şəxsiyyətin formalaşması prosesi sürətlənir, mənəvi şüur, dəyərlər, prinsiplər və dünyagörüşü inkişaf edir. Sosial mühit, xüsusilə ailə, məktəb və kollektiv bu prosesdə mühüm rol oynayır.Yeniyetmədə özünüdərk və özünüqiymətləndirmə ehtiyacı güclənir, öz daxili aləminə maraq artır. Bu dövrdə identifikasiya prosesi əsas yer tutur və fərd öz mənliyini müəyyənləşdirməyə çalışır. Sadalananlarla yanaşı, yeniyetməlik dövrü həm fiziki, həm də psixososial baxımdan mürəkkəb və həlledici inkişaf mərhələsi olub, düzgün istiqamətləndirilmədikdə mənfi davranış və yanlış dəyərlərin formalaşmasına səbəb ola bilər.

**Açar sözlər:** şəxsiyyət, psixososial yanaşma, sosiallaşma, yeniyetmə, özündərk.

**UOT:** 159.922.7; 316.6
**JEL:** I12
**DOI:** https://doi.org/10.54414/BSKZ2382

## Giriş

Yeniyetməlik dövrü insan ontogenezinin ən mürəkkəb, ziddiyyətli və eyni zamanda həlledici mərhələlərindən biri kimi xarakterizə olunur. Təxminən 11–15 yaş aralığını əhatə edən bu dövr uşaqlıqdan yetkinliyə keçid mərhələsi olmaqla, fərdin bioloji, psixoloji və sosial inkişafında keyfiyyətcə yeni dəyişikliklərin baş verdiyi bir mərhələdir. Bu dövrdə yeniyetmənin artan fiziki, intellektual və mənəvi imkanları ilə onun əvvəlki yaş dövrünə xas olan münasibətlər sistemi arasında ziddiyyətlər yaranır ki, bu da onun davranışında, emosional vəziyyətində və sosial münasibətlərində özünü aydın şəkildə göstərir.

Yeniyetməlik dövrünün mühüm xüsusiyyətlərindən biri intensiv fiziki inkişafla bağlıdır. Bu mərhələdə boy və çəkinin sürətli artımı, əzələ və sümük sisteminin formalaşması, ikinci cinsi əlamətlərin meydana gəlməsi müşahidə olunur. Lakin bu inkişaf prosesləri əksər hallarda qeyri-bərabər gedir. Xüsusilə endokrin sistemin inkişafındakı uyğunsuzluqlar yeniyetmənin ümumi vəziyyətinə təsir edərək tez yorulma, emosional qeyri-sabitlik və funksional pozuntulara səbəb ola bilər. Bu fizioloji dəyişikliklər yeniyetmənin psixoloji vəziyyəti ilə sıx qarşılıqlı əlaqədə olub, onun davranış xüsusiyyətlərinə də təsir göstərir.

Psixoloji baxımdan yeniyetməlik dövrü idrak fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə keçidi ilə səciyyələnir. Bu dövrün ən mühüm cəhətlərindən biri şəxsiyyətin formalaşmasının intensiv xarakter almasıdır. İnsan fərd kimi dünyaya gəlsədə, cəmiyyət daxilində sosial münasibətləri mənimsədikcə şəxsiyyətə çevrilir. Yeniyetməlik dövründə sosializasiya və fərdiləşmə prosesləri paralel şəkildə gedir. Bir tərəfdən yeniyetmə cəmiyyətin norma və dəyərlərini mənimsəyir, digər tərəfdən isə özünəməxsus xüsusiyyətlərini, düşüncə tərzini və daxili dünyasını formalaşdırır. Bu prosesdə ailə, məktəb, müəllim və həmyaşıd qrupu mühüm rol oynayır.

Eyni zamanda, bu dövr mənəvi şüurun, dəyərlərin, prinsiplərin və əxlaq etalonlarının formalaşdığı mərhələdir. Yeniyetmə öz davranışını müəyyən mənəvi normalara əsaslandırmağa çalışır. Lakin bu dəyərlər düzgün istiqamətləndirilmədikdə və ya sosial mühit tərəfindən adekvat şəkildə dəstəklənmədikdə, yanlış təsəvvürlər formalaşa bilər. Bu isə bəzən mənfi davranışların, o cümlədən deviant meyillərin yaranmasına gətirib çıxarır. Yeniyetməlik dövrünün psixoloji səciyyəsində identifikasiya prosesi xüsusi yer tutur. Fərd bu mərhələdə öz mənliyini müəyyən etməyə, kim olduğunu, hansı dəyərlərə sahib olduğunu və gələcəkdə hansı yolu seçəcəyini anlamağa çalışır. Bu baxımdan, E. Eriksonun psixososial inkişaf nəzəriyyəsi və onun əsasında C. Marsiyanın irəli sürdüyü şəxsiyyət statusları konsepsiyası yeniyetmənin identifikasiya prosesini izah etmək baxımından mühüm əhəmiyyət daşıyır. Bu yanaşmalar yeniyetmələrin mövcud vəziyyətinə müxtəlif aspektlərdən yanaşmağa və optimal izahlar verməyi təmin edir.

## Əsas hissə

Qərb lüğətlərində yeniyetmə, “adolescent” sözü ilə uyğunlaşır, yetkinliyə doğru inkişaf edən gənc: yeniyetməlik dövrünü yaşayan gənc mənasını daşıyır. Yeniyetməlik dövrünə yalnız fiziki və bioloji cəhətdən yanaşmaq, tam anlaşıqlı olmaya bilər. Məhz bu anda qaranlıq məqamları aydinlaşdırmaq üçün yeniyetmələrə sosial-psixoloji kontekstdə yanaşmaq lazım gəlir [6].

11-15 yaşları əhatə edən bu dövr keçid dövrü olub, uşaqlıqdan yetkinlik halına keçmə vaxtı kimi səciyyələnir. Bu dövrdə yeniyetmənini artan fiziki, intelektual və mənəvi imkanları ilə uşaqlıq dövrü üçün xarakterik olan başqaları ilə qarşılıqlı münasibətlər sistemində ziddiyət yaranır. Əgər bu vaxta qədər onlar faktlar, hadisələr sistemi ilə tanış olurdusa, yeniyetməlik dövründə artıq müxtəlif elmlərin sistematik mənimsənilməsi baş verir. Bu isə onlardan dərin ümumiləşdirmə, sərfinəzər etmə və təfəkkürün digər yüksək inkişaf formalarını tələb edir. Bu dövrdə intensiv müşahidə olunur. Boyun, çəkinin, əzələ sisteminin, və qeyri-bərabər inkişaf sümüklərin, ikinci cinsi əlamətlərin və bütövlükdə bütün orqanizmin intensiv inkişafı baş verir. Yeniyetmənin ürək-damar sisteminin qeyri-bərabər inkişafı diqqəti cəlb edir. Ürəyin həcmi artır, o daha mükəmməl işləyir, lakin qan damarlarının diametri ona nisbətdə yavaş inkişaf edir, sanki inkişafdan qalır. Bu isə tez-tez qan dövranının müvəqqəti pozulmasına, ürək fəaliyyətinin gərginləşməsinə səbəb olur. Ürək-damar sistemininin qeyd olunan inkişaf özəllikləri daxili sekresiya vəzilərinin intensiv fəaliyyəti yeniyetmənin ali sinir sisteminin işinin müvəqqəti pozulmasına səbəb olur. Yeniyetmədə yüksək oyanıqlıq, qıcıqlanma, tez əsəbiləşmə, hirslənmə və s. hallar müşahidə olunur.Fiziki inkişafın ən əsas göstəricisi cinsi yetişmədir. 15-16 yaşına qədər cinsi yetişmə başa çatır, lakin tam mənəvi, sosial yetişmə hələ başa çatmır, Cinsi tələbatların formalaşması, digər cinsə xüsusi maraq, meyl, hisslərin və fikirlərin formalaşması müşahidə olunur. Bu zaman maraq və meyllərin qeyri-sağlam xarakter alması arzu olunmazdır. Ona görə də yeniyetmənin düzgün gün rejimi olmalıdır, yəni yuxu, əmək, qidalanma, istirahət, müntəzəm idmanla məşğul olma burada öz təzahürünü tapmalıdır. Yeniyetmənin diqqətini daha sağlam həyat tərzinə yönəltmək, maraqlı fəaliyyətə faydalı filmə, kitaba, oyuna və s. istiqamətləndirmək vacibdir. Bu dövrdə fiziki inkişafla yanaşı, şəxsiyyətin intensiv formalaşması, mənəvi və intelektual gücün artması müşahidə olunur. Məlumdur ki, insan fərd kimi dünyaya gəlir, cəmiyyətdə müəyyən sosial keyfiyyətlər kəsb

edir və şəxsiyyətə çevrilir. Anadan təzəcə doğulmuş uşaq hələ şəxsiyyət deyil. O, ünsiyyət və fəaliyyət prosesində İctimai münasibətləri mənimsədikcə şəxsiyyətə çevrilir. Şəxsiyyətə çevrilmək özünü dərk etmək, əxlaqi mövqe tutmaq, cəmiyyət üzvü kimi öz mövqeyini dərk etmək, öz əməlləri ilə bunu təsdiq etmək deməkdir.

Həyatı boyu şəxsiyyət həm ictimailəşir (sosializasiya prosesi), həm də fərdiləşir. İctimailəşmə dedikdə şəxsiyyətin ictimai təcrübəyə yiyələnməsi, onu bütün təcrübəni öz sərvətinə çevirmə nəzərdə tutulur. Fərdiləşmə dedikdə ictimai inkişaf prosesində insanın şəxsiyyətə çevrilməsi zamanı onun özünəməxsus (təkrarolunmaz) həyat tərzi və öz daxili aləminin formalaşması nəzərdə tutulur. İnsanı fərdiyyət kimi nəzərdən keçirərkən onu başqa adamlardan fərqləndirən cəhətləri, onun psixikasının və şəxsiyyətinin özünəməxsus özəlliklərini xarakterizə edirik (temperament tipi, xarakter əlamətlər və s.). Yeniyetməlik dövrünün psixoloji səciyyəsində əsas yeri mənəvi şüurun formalaşması, davranışın mənəvi-etik normalarının mənimsənilməsi tutur. Bütün bunlar ətraf mühitin, təlim-tərbiyə işinin, müəllim, kollektiv və valideynin təsiri nəticəsində əmələ gəlir.Yeniyetməlik dövrü dəyərlərin, prinsiplərin və ideaalların formalaşdığı vaxt dünyagörüşünün, mənəvi hesab edilir. Yeniyetmə öz davranışında onlara istinad edir. Bu dövrdə yeniyetmənin mənəvi baxışları kor-koranə formalaşarsa, yəni xarici bir dayaq olmasa, bu baxışlar səhv, əyilmiş formada olur və pis yola düşə bilir. Məsələn, bəzi yeniyetmələr belə hesab edir ki, «tərsklik – iradənin bərkiməsidir» mərd, cəsur adam dedikdə «dediyindən dönməyən, kobud və kəskin» olmaq başa düşürlər. Mənə vi prinsipləri, anlayışları səhv dərk etmə nəticəsində şəxsiyyəti xarakterizə edən keyfiyyətləri səhv qiymətləndirir, öz iradələrini, sərbəstliklərini səhv göstərir və nəticədə mənfi keyfiyyətlər nümayiş etdirirlər.

Yeniyetmənin şəxsiyyətinin inkişafında əsas yerlərdən birini özünüdərkin formalaşması, yəni özünü bir şəxsiyyət kimi dərketmə tələbatı tutur. Onlarda öz daxili həyatına, öz şəxsi keyfiyyətlərinə maraq artır, özünüqiymətləndirmə tələbatı meydana çıxır, özünü başqaları ilə müqayisə edir. Cəmiyyətdə, üzvü olduğu kolletivdə yerini tapmaq üçün öz imkanlarını qiymətləndirmə tələbatı formalaşır. Beləliklə, o, özünə bir şəxsiyyət kimi gündəlik həyatında mane olan və kömək edən keyfiyyətləri aydınlaşdırır. Özünüdərketmə prosesində yeniyetmənin özünüidarəetmə tələbatı ilə şəxsi keyfiyyətlərini təhlil etmə bacarığının olmaması ziddiyyəti meydana çıxır. Həmçinin yeniyetmənin iddia səviyyəsi ilə kollektivdə olan real statusu arasında da münaqişə yaranır. Onun özünə və başqalarının (böyüklərin və həmyaşıdlarının) ona münasibəti arasında ziddiyyət yaranır. Onlardan Üstün olma və ya aşağı olma hissi yeniyetməni narahat edir. Özünüdərkin belə inkişafı və cəmiyyətdə yeniyetməyə olan tələblərin artması özünütərbiyənin formalaşmasına gətirir [2, s.144]. Yeniyetmədə mənlik şüurunun fonualaşması onun öz davranışını, özünün mənəvi keyfiyyətlərini, xarakter qabiliyyətlərini dərk etməsi ilə başlayır.İlk dövrlərdə yeniyetmənin mənlik şüurunun əsasını başqa adamların-yaşlıların (müəllim, valideynlər və qonşuların), kollektiv üzvlərinin, yoldaşlarının onun haqqındakı mülahizələri təşkil edir. Yaş artdıqca yeniyetmə özünün şəxsiyyətini müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır. Bu baxımdan yeniyetmənin başqalarının və özünün qiymətləndirmə meyarlarına, əxlaq normalarına yiyələnməsi onda mənlik şüurunun formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Yeniyetmənin öz şəxsiyyətini dərk etməsi tədrici xarakter daşıyır. O, əvvəlcə təlim fəaliyyətinin icrası ilə bağlı olan keyfiyyətləri (əməksevərlik, təkidlilik, diqqətlilik, səy), sonra başqa adamlarla münasibətləri ifadə edən keyfiyyətləri (yoldaşlıq hissi, həssaslıq, təmkinlik, tərslik), sonra isə özünə münasibəti ifadə edən keyfiyyətləri (şəxsi ləyaqət, şərəf hissi, prinsipiallıq və s.) dərk etməyə başlayır. Yeniyetmənin mənlik şüurunun xüsusiyyətlərini aydınlaşdırarkən bir cəhəti ayrıca qeyd etmək lazımdır. Yeniyetməlik yaşı dövründə özünüdərketmə tələbatı xüsusi məna kəsb etsə də, onun özü haqqındakı obyektiv biliklərinin səviyyəcə aşağı olması diqqəti cəlb edir. Yeniyetmənin bir çox hallarda özünün şəxsi keyfiyyətlərini düzgün

təhlil edə bilməməsinin köklərini, birinci növbədə, məhz burada axtarmaq lazımdır. Bu əsasda da bəzən yeniyetmənin iddia səviyyəsi ilə kollektivdəki real mövqeyi arasında, özünə münasibəti ilə başqa adamların - yaşlıların və yoldaşların ona münasibəti arasında zidiyyətdən nəşət edən münaqişələr meydana çıxır.Yeniyetmə öz davranış və xüsusiyyətlərini dərk etdikcə, onda özünütərbiyə tələbatı yaranır ki, bu prosesdə də ayırd edilmiş nümunə və əxlaqı etalon müstəsna rol oynayır. İlk gənclik yaşı mənlik şüurunun yaranmasının təmamilə xüsusi mərhələsini təşkil edir [ 1, s.59]. Yeniyetməlik problemi daha çox qərb psixologiyasında öyrənilməsi, başqa millətlər üçün çətinliklər yarada bilər. Bu baxımdan əldə olunan biliklərin mövcud cəmiyyətin sosial-iqtisadi xüsusiyyətlərinı uyğunlaşdırılması daha məqsədəuyğun olardı. Məhz Türkiyyədə yeniyetmələrin sosial və emosianal inkişafı öz əksini belə tapır. Bu dövrdə identifikasiya və dostluq sosial və emosional inkişafın iki vacib aspektini təşkil edir. Əvvəlcə identifikasiya prosesini nəzərdən keçirəcəyik, sonra isə yeniyetməlik dövründə dostluq mövzusunu müzakirə edəcəyik.

İdentifikasiya: Biz bu dövrü yeniyetməlik adlandırırıq. Yeniyetməlik dövründə ən vacib addım fərdin öz mənliyini kəşf etməsi və təyin etməsi, başqa sözlə desək, identifikasiya (İdentifikasiya hərəkəti)-dir. Erikson hesab edir ki, bu mərhələdə fərd həm cinsi, həm də peşəkar cəhətdən özünü formalaşdırmağa çalışır.Ceyms Marsiya (1980) Eriksonun nəzəriyyəsinə əsaslanaraq identifikasiyanı aşağıdakı ölçülər daxilində qiymətləndirir:

Mənlik 1)daxili, 2) fərd tərəfindən qurulmuş, 3) dinamik, 4) fərdin bütün sahələrdəki qabiliyyətlərini, inanclarını və təcrübələrini əhatə edir.

Marsiyaya görə, bu struktur nə qədər yaxşı inkişaf edərsə, fərd öz xüsusiyyətlərindən və"fərdiliyindən" bir o qədər xəbərdar olur və güclü və zəif tərəflərini bir o qədər yaxşı görür. Nəticədə, onlar özlərini daha real şəkildə anlamağa nail olurlar.Marsiya, "Şəxsiyyət Statusu" adlandırdığı dörd mərhələli bir nəzəriyyə təklif edir. Mərhələlər ardıcıl olaraq inkişaf edir; lakin, hər kəs bütün mərhələləri inkişaf etdirə bilmir və bəzi fərdlər mərhələlərdən birində ilişib qala bilərlər.

1. Dağınıqlıq (moratorium): Fərd hələ şəxsiyyətini formalaşdırmaq üçün mövcud variantları nəzərdən keçirməyib və seçim edərək şəxsiyyətini müəyyən etməyə sadiq qalmayıb və ya bağlı olmayıb.

2. Kor-koranə bağlılıq (foreclosure): Fərd əvvəllər öyrədilən valideynlərinin baxışlarına və dəyərlərinə kor-koranə bağlıdır. Baxmadan və bu mövzuda heç bir əhəmiyyətli fərdi təcrübə keçirmədən, fərd valideynlərinin baxışlarını və dəyərlərini sanki öz baxışları kimi qorumağa davam edir.

3. Təxirə salmaq (diffusion): Fərd "identifikasiya böhranı"nın ortasındadır. Onlar əvvəllər inandıqları bütün dəyərləri yenidən nəzərdən keçirirlər. Bu mərhələdə fərd özünü çaşqın hiss edir, çünki hələ heç bir konkret baxış bucağına və ya dəyərə sadiq deyil.

4. Uyğunlaşmağın nailiyyəti (identity achievemnt): Fərd dəyərləri və baxışları nəzərdən keçirib və özünü ən uyğun hesab etdiyi şəxsiyyətə sadiq qalıb və bağlı olub. Şəxsiyyət anlayışı geniş əhatə dairəsinə malikdir və fərdin ümumi həyat və peşəkar məqsədlərini əhatə edir.

Tədqiqatlar göstərir ki, identifikasiya 18-24 yaş arası əldə edilir. Erikson mərhələlərin daha əvvəl baş verdiyini irəli sürmüşdü. Lakin tədqiqat nəticələri identifikasiya inkişafının uzun müddət davam etdiyini və fərddən fərdə dəyişən inkişaf tempi göstərdiyini sübut edir.Bir müddətdir müzakirə etdiyimiz idrak, mənəvi və identifikasiya inkişaf mərhələləri arasında bir əlaqə varmı? Cavab "bəli"dir. Bourne (1978) göstərmişdir ki, rəsmi əməliyyat mərhələsinə çatan fərdlər identifikasiyaya daha asan nail ola bilirlər. Zehni inkişafın sürəti həm mənəvi, həm də identifikasiya inkişafının sürəti ilə əlaqədardır. Tədqiqatlar bu əlaqəni qəti şəkildə nümayiş etdirir; lakin, hansı sahənin əvvəlcə inkişaf etdiyini dəqiq bilmirik. 12-18 yaş arası fərdlər hər üç sahədə (idrak, mənəvi və identifikasiya) ən vacib inkişaflarını tamamlayırlar. Piaget bildirir ki, inkişafın baş verməsi üçün ilk addım uşağın bir tarazlığın (tarazlığın pozulması), bir çatışmazlığın fərqinə varmasıdır. 12-18 yaş arası dövr yeniyetmənin

ən çox axtarışda olduğu, valideynləri və ətraf mühiti ilə ən çox ziddiyyət təşkil etdiyi və özləri ilə cəmiyyət arasında ən güclü balanssızlığı yaşadığı bir dövrdür. Yeniyetməlikdə Dostluq: Fərdin hər şeyi tənqid etdiyi və araşdırdığı, özünəməxsus dünyasını qurmağa çalışdığı ən böyük idrak və emosional inkişaf dövrü olan yeniyetməlik dövründə dostluq gənc üçün ən vacib təhlükəsizlik mənbəyinə çevrilir. Bir çox sahədə balanssızlıq vəziyyətində olan və balans yaratmağa çalışan uşaq dostluqda balanssızlıq vəziyyətində deyil. Bu yaşda uşağa yaşın təsiri bəzi ölkələrdə valideynin təsiri qədər, hətta daha böyükdür.

ABŞ-da bu yaş qrupu yeniyetmə adlanır, yəni "yeniyetmə yaşlarında olan birisi". Bu qrup on üç-on doqquz yaşları əhatə edir. Yeniyetməliyin özünəməxsus psixologiyasının olduğu qəbul edilir və təbii ki, hər kəsin bu mərhələdən keçməsi gözlənilir [ 4, s. 359]. Yeniyetmələrin şəxsiyyətinin sosial-psixoloji xüsusiyyətlərindən bəhs edərkən, şəxsiyyətdə aşağılıq kompleksini, sosial maraqları və ətraf aləmin təsirini, xüsusi vurğulayan A.Adlerin xarakterin formalaşması haqqında dedikləri xüsusi əhəmiyyət kəsb edir. Xarakter xüsusiyyətindən danışarkən, onu həyatın yaratdığı çətinliklərin öhdəsindən gəlməyə çalışan bir insanda müəyyən bir zehni ifadənin qabarıqlığı kimi başa düşürük.Müvafiq olaraq, "xarakter" sosial bir anlayışdır. Xarakter xüsusiyyətindən danışmaq üçün insanın ətraf mühitlə münasibətini nəzərə almaq lazımdır. Məsələn, Robinsonun hansı xarakterə sahib olmasının əhəmiyyəti yoxdur. Xarakter zehni münasibət, insanın ətraf mühitə qarşı mövqeyi, insanın sosial hissləri və hörmət istəyi ilə əlaqəli məqsədlərinə çatmaq üçün izlədiyi əsas istiqamətdir. Əvvəllər qeyd etmişdik ki, bütün insan davranışları bir məqsədlə müəyyən edilir və bu məqsəd başqalarından üstün və güclü olmaq, başqalarına nəzarət etmək şəklində özünü göstərir. Bu məqsəd insanın dünyagörüşünə, davranışına və həyat modelinə təsir göstərir və hisslərini və düşüncələrini ifadə etmək üçün istifadə etdiyi davranışları idarə edir. Buna görə də, xarakter xüsusiyyətləri sadəcə bir insanın trayektoriyasının xarici təzahürləridir. Bu təzahürlər bizə bir insanın ətraf mühitə, digər insanlara, bir sözlə, cəmiyyətə və həyatın problemlərinə qarşı necə davrandığını göstərir. Xarakter xüsusiyyətləri insanı hörmətə aparan vasitələrdir; Bunlar birləşdikdə həyat tərzini formalaşdıran bacarıqlardır.

Xarakter xüsusiyyətləri, bir çoxlarının inandığı kimi, fitri keyfiyyətlər və ya təbiət tərəfindən verilən xüsusiyyətlər deyil; onlar daha çox insan varlığında kök salmış fundamental prinsip, model kimidir və fərdlərin hər hansı bir vəziyyətdə çox düşünmədən ardıcıl davranmasına imkan verir. Fitri güclərə və ya təməllərə əsaslanmayan bu xüsusiyyətlər fərd tərəfindən erkən yaşda, lakin sonrakı həyatda müəyyən bir həyat tərzinə riayət etmək üçün qazanılır. Buna görə də, heç bir uşaq tənbəl doğulmur; əgər uşaq tənbəldirsə, bu, tənbəlliyi həyatı asanlaşdırmaq və hörmətini qurban verməkdən çəkinmək üçün əlverişli bir vasitə kimi görmələri ilə bağlıdır. Çünki tənbəllik yolunda irəliləyərkən insan müəyyən mənada güclü mövqeyini qoruya bilər. Onlar tənbəlliyi daxili bir qüsur kimi təqdim edə bilər və beləliklə, daxili mənliyini hər hansı bir hücumdan qoruya bilərlər. Məsələn, vəziyyətə bu baxımdan baxdıqda, onlar belə bir nəticəyə gələ bilərlər: "Əgər məndə bu qüsur olmasaydı, istedadlarım parlaq şəkildə inkişaf etmək imkanı olardı; amma təəssüf ki, mən belə bir qüsurla doğulmuşam." Başqa bir insan isə, idarəolunmaz bir meyl və hakimiyyət uğrunda mübarizə ilə daim ətraf mühitlə ziddiyyətdə yaşayır və belə bir mübarizə üçün zəruri hesab etdiyi ambisiya, qısqanclıq və özünəinamsızlıq kimi xüsusiyyətlər inkişaf etdirir.

Yeniyetmədə şəxsiyyətin formalaşması sosial mühitdə inkişaf etdiyi üçün, sosial inkişafından bəhs edərkən eyni ilə onu əhatə edən aləmdən, cəmiyyətdən, bəhs etmək lazım gəlir [3, s.325]. Qeyd etmişdik ki, yeniyetməlik anlayışı, onun tərifi və yaş qrupları daxilindəki yeri müxtəlif cəmiyyətlərdə fərqli şəkildə qarşılanır. Məsələn, ibtidai cəmiyyətlərdə uşaqlıqdan yetkinliyə keçid qəfil baş verir. Cəmiyyətin adət-ənənələrinə uyğun olaraq təşkil edilən mərasimdən sonra gənc yetkin hesab olunur. Bu cəmiyyətlərin bəzilərində, xüsusən də oğlanlar üçün yetkinliyə

keçid "təşəbbüs" adlanan uzun mərasimlər vasitəsilə baş verir. Cəmiyyətə daxil olmağı və üzvlüyü qəbul etməyi simvolizə edən bu mərasimlərdə yeniyetmə havaya atılır və yerə yıxıldıqda şiddətlə döyülür. O, qızlardan ayrılır və gənc kişilərin olduğu yerdə qalır. Burada gənc davamlı işgəncələrə məruz qalır. Sonra sünnət edilir və ona riayət etməli olduğu qaydalar izah edilir. Bu mərasimlər zamanı ağrı və işgəncəyə dözümlülük yetkinliyin əlaməti hesab olunur.

Hər bir cəmiyyətdə hər bir fərd bu dövrü yaşayır. Lakin bu mərhələnin mənası və məzmunu müxtəlif mədəniyyətlərdə fərqli olduğundan, yeniyetməliyi yaşadığı mədəniyyətlə əlaqəli şəkildə nəzərdən keçirmək lazımdır.Sosial dəyərlərin daim dəyişdiyi və inkişaf etdiyi cəmiyyətimizdə yeniyetmələr təhsillərində uğur qazanmaq, iqtisadi müstəqilliyə nail olmaq və cəmiyyətin və yaşıdlarının rəğbətini qazanmaqdan narahatdırlar. Cəmiyyətdən asılı olmayaraq, yeniyetmələr yaşlarına xas olan emosiyalar, düşüncələr, münasibətlər, davranışlar və hərəkətlərlə xarakterizə olunurlar. Bu yaşın əsas xüsusiyyətləri emosional coşğunluq və impulsivlik, tez formalaşan və pozulan münasibətlər, asan təsir, cəmiyyətdə seçilmək, diqqəti cəlb etmək və rol oynamaq istəyi kimi ümumiləşdirilə bilər [ 5, s.274].

**Nəticə**

Yekun olaraq qeyd etmək olar ki, yeniyetməlik dövrü insan inkişafının ən mürəkkəb və çoxşaxəli mərhələlərindən biri olub, yalnız bioloji və fiziki dəyişikliklərlə məhdudlaşmır, eyni zamanda dərin sosial-psixoloji transformasiyalarla səciyyələnir. Bu dövrdə fərd uşaqlıqdan yetkinliyə keçid prosesində həm daxili (psixoloji, idrak, emosional), həm də xarici (sosial mühit, ailə, kollektiv) amillərin təsiri altında formalaşır. Yeniyetmənin şəxsiyyətinin inkişafında mənlik şüurunun yaranması, özünüdərk, özünüqiymətləndirmə və identifikasiya prosesləri xüsusi əhəmiyyət kəsb edir. Bu proseslər zamanı yaranan daxili ziddiyyətlər, iddia səviyyəsi ilə real sosial mövqe arasındakı uyğunsuzluqlar, eləcə də emosional qeyri-sabitlik bu dövrün təbii xüsusiyyətləri kimi çıxış edir. Bununla yanaşı, mənəvi dəyərlərin, dünyagörüşünün və sosial davranış normalarının mənimsənilməsi yeniyetmənin gələcək şəxsiyyət strukturunun əsasını təşkil edir. Elmi yanaşmalar göstərir ki, yeniyetməlik dövründə fərdin özünü tapması uzunmüddətli və fərdi xüsusiyyətlərdən asılı olan bir prosesdir. Bu baxımdan idrak, mənəvi və sosial inkişaf sahələri bir-biri ilə sıx qarşılıqlı əlaqədədir və onların harmonik inkişafı şəxsiyyətin sağlam formalaşmasını təmin edir. Nəticə etibarilə, yeniyetməlik dövrünün düzgün istiqamətləndirilməsi üçün sosial mühitin, ailənin və təlim-tərbiyə prosesinin rolu həlledici əhəmiyyət daşıyır. Sağlam sosial münasibətlər, adekvat dəyərlər sistemi və müsbət nümunələr yeniyetmənin şəxsiyyət kimi formalaşmasına, cəmiyyətə uğurlu inteqrasiyasına və psixoloji rifahına zəmin yaradır. Əks halda, bu dövrdə yaranan ziddiyyətlər və yanlış yönləndirmələr fərdin gələcək inkişafına mənfi təsir göstərə bilər.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. 2-ci nəşri. Bakı: 2003
2. Şəfiyeva E.İ. Anomal inkişfın psixologiyası, Bakı, 2012.
3. Adler A. İnsan tanıma sanatı. d. 7 Şubat 1870, Penzing-Avusturya – ö. 28 Mayıs 1937.
4. Cüceloğlu D. İnsan ve Davranışı. 25-ci basım. İstanbul. 2016
5. Yavuzer H . Çocuk psikolojsi. 48-ci basım. İstanbul: 2024
6. https://www.britannica.com/dictionary/adolescent

**Rashid Vekil JABBAROV**
Odlar Yurdu University, Department of Psychology, Pedagogy and Social Sciences,
Doctor of Psychology, Professor

**Nilufer Rauf MAMMADOVA**
Master's student, Department of Psychology and Social Work, Western Caspian University

# SOCIO-PSYCHOLOGICAL CHARACTERIZATION OF ADOLESCENCE

**Summary**

Adolescence, which covers a certain age range, is characterized as a transition stage from childhood to adulthood, and the main physical, psychological and social characteristics of this period are analyzed. It is shown that physical development during adolescence is intensive: height and weight gain, uneven development of the muscular and skeletal systems, and the formation of secondary sexual characteristics are observed. Inappropriate development in the cardiovascular and endocrine systems can lead to temporary functional disorders. From a psychological point of view, this period is characterized by the complexity of cognitive activity; adolescents are already mastering systematic knowledge, developing generalization and abstract thinking skills. At the same time, the process of personality formation is accelerating, moral consciousness, values, principles and worldview develop. The social environment, especially the family, school and collective, plays an important role in this process. The need for self-awareness and self-evaluation in adolescents increases, interest in their inner world increases. During this period, the identification process takes a central place and the individual tries to define his or her own identity. In addition to the above, adolescence is a complex and crucial stage of development, both physically and psychosocially, and if not properly guided, it can lead to the formation of negative behavior and wrong values.

**Keywords**: personality, psychosocial approach, socialization, adolescent, self-esteem.

**Рашид Векиль ДЖАББАРОВ**
Университет Одлар Юрду, факультет психологии, педагогики и социальных наук,
доктор психологических наук, профессор

**Нилуфар Рауф МАМЕДОВА**
Западно-Каспийский университет, магистрант кафедры психологии и социальной работы

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ПОДРОСТКОВОГО ВОЗРАСТА

**Резюме**

Подростковый возраст, охватывающий определенный возрастной диапазон, характеризуется как переходный этап от детства к взрослости, и анализируются основные физические, психологические и социальные особенности этого периода. Показано, что физическое развитие в подростковом возрасте интенсивно: наблюдается увеличение роста и веса, неравномерное развитие опорно-двигательного аппарата, формирование вторичных половых признаков. Неадекватное развитие сердечно-сосудистой и эндокринной систем может вызывать временные функциональные расстройства. С психологической точки зрения этот период характеризуется сложностью познавательной деятельности; подростки уже осваивают систематические знания, развивают навыки обобщения и абстрактного мышления. Одновременно ускоряется процесс формирования личности, развивается нравственное сознание, ценности, принципы и мировоззрение. Важную роль в этом процессе

играет социальная среда, особенно семья, школа и коллектив. У подростков возрастает потребность в самосознании и самооценке, увеличивается интерес к своему внутреннему миру. В этот период центральное место занимает процесс идентификации, и индивид стремится определить себя. Помимо вышесказанного, подростковый возраст — это сложный и важный этап развития, как физического, так и психосоциального, и если его не направлять должным образом, он может привести к формированию негативного поведения и неправильных ценностей.

**Ключевые слова:** личность, психосоциальный подход, социализация, подросток, самооценка.

**Daxil olub:** 15.04.2026